# **Azərbaycan Respublikası Hesablama Palatasının 2007-ci ildəki fəaliyyəti haqqında hesabat**

Hesabatda qeyd edilmişdir ki, Palatanın 2007-ci ildəki fəaliyyəti qüvvədə olan qanunvericilik aktlarına, Palatanın iclasında təsdiq olunmuş İş planına və digər müvafiq normativ sənədlərin tələblərinə uyğun həyata keçirilmişdir.

Hesabat ilində İş planı üzrə 3 audit və 34 ekspert-analitik tədbirin aparılması nəzərdə tutulmuş, lakin Palatada həyata keçirilən təşkilati tədbirlərlə, mövcud məlumat bazasının gücləndirilməsi və hesabat formalarının təkmilləşdirilməsi zərurəti ilə əlaqədar olaraq yalnız 3 audit və 20 ekspert-analitik tədbir aparılmışdır.

2007-ci ildə Palatanın 14 iclası keçirilmiş və bu iclaslarda 32 məsələyə, o cümlədən nəzarət tədbirlərinin nəticələrinə dair 3, normativ sənədlərin və audit standartlarının təsdiq edilməsi barədə 7, audit proqramlarının təsdiq edilməsi barədə 4 məsələyə baxılmışdır.

Nəzarət tədbirlərinin həyata keçirilməsi üçün Hesablama Palatasının malik olduğu informasiya resursları Palatanın müxtəlif fəaliyyət istiqamətləri üzrə müəyyən edilmiş yeni tələblərə tam uyğun olmadığından qüvvədə olan bir çox məlumat formaları təkmilləşdirilmiş, mövcud məlumat bazasını daha da gücləndirmək və son 3 ili əhatə edən bazanın formalaşdırılmasını təmin etmək məqsədilə funksional təsnifatın ayrı-ayrı bölmələri üzrə dövlət aktivləri və əmlakının, sosial yönümlü xərclərə və iqtisadiyyatın ayrı-ayrı sahələrinə ayrılan büdcə vəsaitlərinin idarə və istifadə olunmasını, habelə bank fəaliyyəti sahəsini əhatə edən 80-dən çox ilkin məlumat formaları tərtib edilərək müvafiq mərkəzi və yerli icra orqanlarına

göndərilmiş, həmin məlumat formalarının doldurulması ilə əlaqədar onlarla müntəzəm əlaqə saxlanılmış, çoxsaylı izahat işləri aparılmışdır.

Hesabat ilində Palataya 1122 müxtəlif məzmunlu məktub, müraciət və şikayət ərizəsi, ayrı-ayrı mərkəzi və yerli idarəetmə orqanlarından, büdcə təşkilatlarından hesabat və məlumatlar daxil olmuş, Palata tərəfindən isə müxtəlif sorğu və məlumatların əldə olunması üçün ayrı-ayrı orqanlara 561 müraciət məktubu göndərilmiş, izahat və cavablar verilmişdir. Palatada kargüzarlıq üzrə dövriyyənin həcmi 2006-cı illə müqayisədə 17,6% çox olmuşdur.

Eyni zamanda, hesabat ilində Palata Azərbaycan Respublikasının Prezidenti Möhtərəm İlham Əliyev cənablarının həyata keçirdiyi ardıcıl, məqsədyönlü və çevik iqtisadi siyasətin uğurlarına öz layiqli töhfəsini vermək, ali qanunverici orqan kimi Azərbaycan Respublikası Milli Məclisinin, onun rəhbərliyinin və daimi komissiyalarının tövsiyələrini, müraciət və sorğularını vaxtında və keyfiyyətlə yerinə yetirmək, cari fəaliyyətini daha səmərəli təşkil etmək və qanunvericiliklə müəyyən edilmiş funksiyalarının icrasını mütəşəkkil təmin etmək üçün təşkilati məsələlərin həllinə, o cümlədən Palatanın yeni strukturunun formalaşdırılmasına, peşəkar və səriştəli kadr potensialının gücləndirilməsinə, yüksək intellektli gənc kadrların cəlb edilməsinə, dövlətin, fiziki və hüquqi şəxslərin mənafeyinin qorunmasına xüsusi diqqət yetirmişdir.

Hesabat ilində Palatanın qanunvericiliklə müəyyən olunmuş funksiyalarının icrasına uyğun olaraq analitik fəaliyyət sahəsində aşağıdakı rəylər hazırlanmışdır:

- "Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və büdcənin icrasına dair hesabata rəy;

- “Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanun layihəsinə rəy;

- “Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2007-ci il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanun layihəsinə rəy;

- “Azərbaycan Respublikasının 2008-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinə rəy;

- “Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2008-ci il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinə rəy.

Hesabat ilində Palatanın nəzarət fəaliyyəti İş planı və Palatanın üzvləri arasında təsdiq edilmiş iş bölgüsü əsasında aparılmış, dövlət büdcəsinin gəlir və xərcləri üzrə müvafiq audit tədbirləri və analitik təhlil işləri həyata keçirilmişdir.

Göstərilən rəylər, audit tədbirləri və analitik təhlil işləri barədə Palatanın saytının müvafiq bölmələrində məlumat yerləşdirilmişdir. Qeyd etmək lazımdır ki, Hesablama Palatası tərəfindən həyata keçirilmiş audit tədbirləri nəticəsində bir sıra nöqsan və çatışmazlıqlar, o cümlədən beynəlxalq telekommunikasiya xidmətləri göstərən strukturlarda inzibati və maliyyə idarəetmələri arasında uyğunsuzluqların olması, bir sıra hallarda vergilərin düzgün hesablanmaması, telekommunikasiya xidmətlərinin tariflərinin formalaşması üçün müvafiq normativ sənədlərin işlənib hazırlanmaması, bəzi tranzit operatorlarla hesablaşmalarda kreditor borclarının yaradılması, uzunmüddətli pay qoyuluşundan dividendlərin alınmasının təmin edilməməsi, kənd təsərrüfatı texnikalarının satınalınması ilə əlaqədar müvafiq razılığın olmasına baxmayaraq, istehsalçı müəssisələrlə birbaşa müqavilələrin bağlanılmaması və qiymətlərin aşağı salınması üçün real ehtiyat mənbələrindən tam

istifadə olunmaması, kənd təsərrüfatına lazım olan texnikaların çeşidlərinin tam şəkildə araşdırılmaması, texnika, aqrokimyəvi maddə və pestisidlər satılarkən, servis xidmətinə və ya lizinqə verilərkən onların alış qiymətlərinin üzərinə müvafiq orqanlar ilə razılaşdırılmadan əlavələrin qoyulması, müqavilə şərtlərinə riayət etməyən malgöndərənlərə qarşı müqavilədə razılaşdırılmış hədlərdə cərimə sanksiyalarının tətbiq edilməməsi, aqrokimyəvi maddələr və pestisidlərin anbarlarda istifadəsiz qalması, bəzi xərc maddələri üzrə proqnoz hesablamalarının aparılmaması və ya əvvəlki illərin nəticələrinə əsasən təxmini hesablamaların aparılması, büdcə və büdcədənkənar vəsaitlər üzrə təyinat dəyişikliklərinə yol verilməsi, ödənişli təhsil alan tələbələrin təhsil haqları üzrə borcların hesablanılması və uçotunun aparılmasına dair konkret formaların olmaması nəticəsində bu borcların məbləğlərinin maliyyə hesabatlarında əks etdirilməməsi, yerinə yetirilmiş bəzi təmir işlərinin uçotunun düzgün qurulmaması, ştat vahidləri müəyyən edilən zaman Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Ali təhsil müəssisələrinin inşaat, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar"ın tələblərinə tam riayət olunmaması yaxud pozulması və s. müəyyən edilmişdir.

Verilmiş məlumatlara görə yol verilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, vergi borclarının və dividendlərin, trafik mübadiləsinə görə vəsaitlərin ödənilməsi təmin olunmuş, beynəlxalq telekommunikasiya xidməti göstərən strukturlarda beynəlxalq trafiklər üzrə gəlir və xərclərin uçotunun aparılmasında, strukturlar arasında bölgüsündə və qarşılıqlı hesablaşmalarda mövcud olan qarışıqlıqların aradan qaldırılması üçün müqavilə bağlanılmış və müvafiq Təlimat hazırlanmış, texnika, aqrokimyəvi maddə və pestisidlər satılmasından yığılan vəsaitlərin məbləği əhəmiyyətli səviyyədə artmış, yerinə yetirilmiş işlərin dəyərinin

artırılması nəticəsində artıq ödənilmiş vəsaitin dövlət büdcəsinə bərpa olunması təmin edilmişdir.

Hesabat ilində Palata büdcə prosesində daha aktiv iştirak etmək və bu prosesin əsas iştirakçıları olan dövlət orqanları ilə münasibətləri daha çevik tənzimləmək üçün yeni təşkilati idarəetmə strukturunu formalaşdırmış, idarəetmə işlərini daha mütəşəkkil təşkil etmək və reqlamentləşdirmək üçün bir sıra normativ sənədlər hazırlanmışdır, o cümlədən "Daimi dövlət qulluğu haqqında əmək müqaviləsi"nin nümunəsi, "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Hesablama Palatasında görüləcək işlər barədə Tədbirlər Planı (2007-2011-ci illər)", Hesablama Palatasında maddi-məsul şəxslərin müəyyən edilməsi və onlarla tam məsuliyyət haqqında müqavilələrin bağlanılmasını tənzimləmək məqsədi ilə Hesablama Palatasının 2007-ci il 19 oktyabr tarixli 59 nömrəli əmri verilmiş və maddi-məsul şəxslərlə tam məsuliyyət haqqında müqavilələrin bağlanılması, Palatada otaqların açarlarının saxlanılması, mühafizəsi və onlardan istifadə edilməsini tənzimləmək, balansda olan nəqliyyat vasitələrinin işlək və saz vəziyyətdə saxlanılmasını və bu məqsəd üçün ayrılmış büdcə vəsaitlərinə qənaət edilməsini təmin etmək üçün onların təmirini vahid qaydada aparmaq məqsədi ilə müvafiq Qaydaların hazırlanması təmin və təsdiq edilmişdir.

Hesablama Palatasında çalışan dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsini tənzimləmək məqsədi ilə Palatanın 2007-ci il 08 avqust tarixli 44 nömrəli əmri ilə daimi fəaliyyət göstərən komissiya yaradılmış və 2007-ci il tarixdə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 03 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin

verilməsi Qaydaları"na uyğun olaraq 31 nəfər dövlət qulluqçusuna yeni ixtisas dərəcəsi verilmişdir.

Gənc kadrların dövlət qulluğuna cəlb edilməsinə də Palata tərəfindən xüsusi diqqət yetirilmiş, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 566 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydaları"na uyğun olaraq hesabat ilinin aprel-may aylarında Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən test imtahanından və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət qulluğu məsələləri üzrə Komissiyasında müsahibədən müvəffəqiyyətlə keçən 5 nəfər sınaqçı kimi Hesablama Palatasında dövlət qulluğuna qəbul edilmişdir. Bundan başqa Palatada sınaqçı kimi işə götürülmüş 14 nəfər işçinin sınaq müddəti başa çatdığı üçün onlar müvafiq qaydada daimi dövlət qulluğuna qəbul olunmuşdur.

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış "Azərbaycan Respublikası: Korporativ və Dövlət sektorlarında Hesabatlılıq layihəsinin (CAPSAP) hazırlanması üçün Siyasət və İnsan resurslarının İnkişaf etdirilməsinə dair qrant üzrə məktub - saziş" çərçivəsində "Hesablama Palatasının Strateji İnkişaf Planının hazırlanması" layihəsinin 2.3-cü subkomponentinin icrası məqsədi ilə Hesablama Palatasının 2007-ci il 13 avqust tarixli 47 nömrəli əmri ilə Strateji İnkişaf Planının hazırlanması üzrə Koordinasiya qrupu yaradılmışdır. İrlandiyanın "HELM CORPORATİON" şirkəti tərəfindən Strateji İnkişaf Planının ilkin layihəsi hazırlanmışdır. Qeyd etmək lazımdır ki, CAPSAP layihəsi çərçivəsində Palataya qrant şəklində vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən digər dövlət orqanları ilə qarşılıqlı işgüzar əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi üçün bir sıra dövlət orqanları, o cümlədən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Baş Prokurorluq və Vergilər Nazirliyi ilə ayrı-ayrılıqda Razılaşma Memorandumu layihələri hazırlanmışdır.

Palatanın fəaliyyətinin mövcud qanunvericiliyin və normativ-hüquqi aktların tələblərinə uygun təşkil edilməsi və aparılması üçün hesabat ilində metodoloji təminat məsələsinə xüsusi diqqət yetirilmiş, bir sıra normativ sənədlər, o cümlədən "Azərbaycan Respublikası Hesablama Palatasında kargüzarlığın aparılmasına dair Qaydalar", "Azərbaycan Respublikası Hesablama Palatasında vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlıq işlərinin aparılması və Palatada vətəndaşların qəbulu Qaydalar", "Azərbaycan Respublikası Hesablama Palatasının üzvlərinə dair Etik Qaydalar" hazırlanmışdır.

İş planına uyğun olaraq Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) standartlarına əsasən Milli audit standartlarının hazırlanması məsələsi nəzərdə tutulmuş və hesabat ilində bu istiqamətdə müvafiq işlər görülmüşdür. Belə ki, beynəlxalq audit standartlarına uyğun olaraq 4 Milli audit standartlarının (dövlət sektorunun auditi üzrə) layihələri hazırlanmışdır. Bunlardan ikisi "Audit sübutları" audit standartı (HP-AS № 10/142) və "Analitik prosedurlar" audit standartı (HP-AS № 12/144) Hesablama Palatasının iclasının qərarı ilə təsdiq olunmuş, "Ekspertin işindən istifadə" və "Audit seçməsi" audit standartları üzrə müzakirələr davam etdirilir.

Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının Audit Standartları Komitəsi tərəfindən hazırlanmış və rəy bildirilmək üçün Hesablama Palatasına təqdim olunmuş

“Uyğunluq Auditi üzrə Təlimatlar” audit standartının (İSSAİ 4100) layihə sənədinə Palata tərəfindən müvafiq rəy verilmişdir.

Hesabat dövründə Palata tərəfindən dövlət maliyyə nəzarətini həyata keçirən ali audit qurumlarını birləşdirən beynəlxalq təşkilatlarla (INTOSAI, EUROSAI, ASOSAI, ECOSAI) əlaqələr daha da möhkəmləndirilmiş, bir sıra ölkələrin ali maliyyə nəzarəti orqanları ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq sahələrində kompleks işlər görülmüş, Palatanın əməkdaşları INTOSAI (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı), EUROSAI (Ali Audit Qurumlarının Avropa Təşkilatı) və ASOSAI-nin (Ali Audit Qurumlarının Asiya Təşkilatı) bir sıra peşəkar komitə və işçi qrupları tərəfindən hazırlanmış Beynəlxalq Peşəkar Audit Standartlarının və digər normativ sənədlərin layihələrinin (məsələn, “Ali Audit Qurumlarının müstəqilliyi haqqında Meksika Bəyannaməsi”, “Uyğunluq auditi üzrə təlimatlar” və s.) ekspertizasında iştirak etmişlər.

Hesabat ilində Palatanın nümayəndə heyəti və əməkdaşları İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Ali Audit Qurumlarının Birliyinin (ECOSAI) IV Assambleyasının işində, EUROSAI tərəfindən keçirilən “Avropa Ekologiya Hüququ kontekstində Təbiətin Mühafizəsi” mövzusunda seminarda, Avropa, Asiya və Rusiya Federasiyasının 70-dən çox regionunun dövlət maliyyə nəzarəti orqanlarının nümayəndə heyətlərinin iştirak etdiyi “Maliyyə nəzarəti və yeni informasiya texnologiyaları” mövzusunda II Beynəlxalq elmi-təcrübi konfransda, EUROSAI-nın təbii və texnogen fəlakətlərin, habelə radioaktiv tullantıların nəticələrinin aradan qaldırılmasının auditi üzrə Xüsusi İşçi Qrupun birinci iclasında, Türkiyə Respublikasının AAQ-ı olan Sayıştay Bakanlığının 145 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.

Hesabat dövründə Xəzər dənizində sualtı bioloji resursların səmərəli istifadəsi, habelə nərə balıqlarının müdafiəsi, mühafizəsi, bərpası və rasional istifadəsinə yönəldilmiş vəsaitlərin səmərəli istifadəsi üzrə keçirilmiş paralel nəzarət tədbirinin nəticələri Azərbaycan Respublikası Hesablama Palatası, Qazaxıstan Respublikası büdcəsinin icrasına nəzarət üzrə Hesablama Komitəsi və Rusiya Federasiyası Hesablama Palatası tərəfindən Azərbaycan, Qazaxıstan və Rusiyanın müvafiq dövlət təşkilatlarının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Palatanın fəaliyyətində aşkarlıq “Hesablama Palatası haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “İnformasiyanın əldə edilməsi haqqında” Azərbaycan Respublikası Qanunlarına və digər müvafiq qanunvericilik aktlarının tələblərinə uyğun olaraq həyata keçirilmişdir. Hesabat dövründə Palatanın fəaliyyəti barədə KİV-ə müntəzəm olaraq məlumatlar verilmiş, Palataya ayrı-ayrı informasuya agentlikləri və mətbuat orqanlarından informasiya sorğuları daxil olmuş və müvafiq surətdə ətraflı cavablandırılmışdır.

Azərbaycan Respublikası Hesablama Palatasının yeni Sədrinin vəzifəyə təyin olunması ilə əlaqədar olaraq INTOSAI, EUROSAI, ASOSAI, ECOSAI təşkilatlarının və bütün Ali audit qurumlarının rəhbərlərinə göndərilmiş məlumatlar həmin qurumların WEB-saytlarda və nüfuzlu jurnalların səhifələrində dərc olunmuşdur.

2007-ci ildə Palatanın informasiya-kommunikasiya təminatına da xüsusi diqqət yetirilmiş və bu sahədə müəyyən işlər görülmuş, zəruri proqram təminatının yüklənməsi (installyasiyası), sazlanması və sonrakı müşayiəti (şəbəkə proqramları, poçt serverinin sazlanması, antivirus proqramlarının yenilənməsi və s. də daxil olmaqla) ilə bağlı işlər davam etdirilmişdir. Palatanın kompüter və ofis texnikasının parkı xeyli genişləndirilmiş, əvvəlki ilə nisbətən təşkilatda kompüterlərın sayı demək olar ki, iki dəfə artmışdır. Palatada 99 kompüter, o cümlədən, 15 noutbuk və 2 server

istifadə edilmişdir ki, bu da nəzarət və ekspert-analitik fəaliyyətin təmin edilməsi üçün etibarlı məlumat bazasının formalaşdırılmasına, mövcud bazanın genişləndirilməsi və təkmilləşdirilməsinə, əməkdaşlar tərəfindən zəruri və dolğun məlumatların daha çevik əldə olunmasına imkan yaratmışdır.

Palataya vətəndaşlardan daxil olmuş təklif, ərizə və şikayətlər üzrə kargüzarlıq işləri qüvvədə olan normativ-hüquqi sənədlərin tələblərinə uyğun təşkil edilmiş, vətəndaşın adı, atasının adı, soyadı və ünvanı göstərilməyən müraciətlər anonim sayılaraq onlara baxılmamış, bəzi müraciətlər üzrə xüsusi yoxlama keçirilməsi tələb olunduğuna görə orada qeyd olunan faktların nəzarət tədbirləri aparılan zaman araşdırılması nəzərdə tutulmuş, bir sıra ərizə və şikayətdə göstərilən məsələlərin mahiyyəti Palatanın fəaliyyətinə aid olmadığı üçün müvafiq qaydada baxılmaq üçün aidiyyatı təşkilatlara göndərilmiş və bu barədə müraciət edənlərə yazılı məlumat verilmiş, digər ərizə və şikayətlər araşdırılaraq cavablandırılmışdır.

Palatanın fəaliyyətini səmərəli təşkil etmək üçün 2007-ci ilin dövlət büdcəsində 2075,2 min manat vəsait nəzərdə tutulmuş və həmin vəsaitin 1546,1 min manatı istifadə edilmiş, başqa sözlə, büdcə proqnozu 74,5% səviyyəsində icra edilmişdir.

Xərc maddələrindən "Əməyin ödənişi" bölməsi ümumi xərclərin 58,6% -ni təşkil etməklə 67,5% icra edilmiş və ya 1217,6 min manat təyinata qarşı kassa icrası 822,2 min manat olmuşdur. 2007-ci ildə bu maddə üzrə kassa icrasının aşağı səviyyəsi vakant olan 2 auditor, 41 inzibati və 3 yardımçı vəzifələrin maliyyə təminatları ilə bağlı olmuşdur.

"Malların (iş və xidmətlərin) satın alınması" bölməsi smeta xərclərinin tərkibində 16,5% təşkil etməklə 67,1% icra edilmiş və ya 341,8 min manat təyinata qarşı kassa icrası 229,5 min manat olmuşdur.

“Təqaüdlər və sosial müavinətlər” bölməsi smeta xərclərinin tərkibində 0,7% təşkil etməklə 86,1% icra edilmiş və ya 15,0 min manat təyinata qarşı kassa icrası 12,9 min manat olmuşdur .

“Digər xərclər” bölməsi smeta xərclərinin tərkibində 11,1% təşkil etməklə 91,7% icra edilmiş və ya 230,8 min manat təyinata qarşı kassa icrası 211,6 min manat olmuşdur ki, bu vəsaitdən “İcarə və muzdlu xidmətlər” paraqrafına 53,8 min manat, “Sair müxtəlif xərclər” köməkçi bölməsinə 157,8 min manat vəsait xərclənmişdir.

“Qeyri-maliyyə aktivlərinin alınması” bölməsi smeta xərclərinin tərkibində 13,0% təşkil etməklə 270,0 min manat təyinat 100,0% icra edilmişdir.

Eyni zamanda, dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu bölməsində Palatanın yeni binasının inşası ilə əlaqədar olaraq 150,0 min manat vəsait nəzərdə tutulmuşdur. Həmin vəsaitdən 18,0 min manat layihə-smeta sənədlərinin hazırlanmasına, 2,6 min manat tərtib edilmiş layihənin ekspertizasına, 129,4 min manat isə tikinti işlərinin aparılmasına istifadə edilmişdir.